# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Əsədov Əsəd Soltan oğlu**

22 mart 1956-cı ildə Zəngilan rayonunun Turabad kəndində anadan olub. 1975-ci ildə Mincivan qəsəbə orta məktəbini bitirib. Hərbi xidmətini başa vurduqdan sonra Saratov vilayətinin Krasnokutsk şəhərindəki Təyyarəçilik Məktəbinin mülki aviasiya şöbəsinə daxil olub. 1976-cı ildə təyyarələrin uçuş istismarı peşəsinə yiyələnərək Yevlax Mülki Aviasiya İdarəsində işə başlayıb.

Erməni işğalçılarının torpaqlarımıza təcavüzü başlayanda o da mübarizəyə qoşulub. Əsəd Əsədov təcrübəli təyyarəçi kimi döyüş bölgələrinə uçuşlar edib və ekstremal vəziyyətlərdə düzgün qərarları ilə düşmənin layiqli cavabını verib.

29 oktyabr 1991-ci ildə 9 nəfərlə Xocalı aeroportuna köməyə can atan cəsur döyüşçülər Xanabad kəndi üzərində düşmən tərəfindən güclü atəşə tutulub. Cəsur komandir bu uçuş zamanı heyət üzvləri ilə birlikdə həlak olub.

Ailəli idi. Dörd övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə Əsəd Əsədov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Zəngilan rayonunda dəfn edilib.

Zəngilan rayon Turabad kənd tam orta məktəbi və Mincivan qəsəbəsindəki mərkəzi küçələrdən biri onun adını daşıyır.



**Əsədov Malik Hamil oğlu**

27 iyun 1962-ci ildə Yevlax rayonunun Havarlı kəndində anadan olub. 1979-cu ildə buradakı orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılıb. Qazaxıstanda hərbi xidmətini başa vurub, Mingəçevir şəhər 45 saylı Müstəqil Hərbiləşdirilmiş Yanğından Mühafizə Hissəsində əmək fəaliyyətinə başlayıb.

Qarabağ hadisələri başlayanda o, Xocalıda, Əsgəranda, Ağdamda, Şuşada gedən ağır döyüşlərdə iştirak edib.

1992-ci il yanvarın 12-də Mingəçevirdən 20 nəfər döyüşçünü, o cümlədən Maliki Daşaltı kəndinin yaxınlığındakı Nəbilər kəndinə göndəriblər.

Yanvarın 18-də ermənilər hər tərəfdən kəndə hücuma keçirlər. 6 nəfər polislər onlara qarşı cəsurluqla döyüşür. Malik Əsədov bir neçə yara alsa da, cəsarətlə vuruşur. Şuşa polisinin əməkdaşları özlərini onlara yetirsələr də gec olur. Onlarla düşmən əsgərini yerə sərən Malik bu döyüşdə gözlərini əbədi yumur.

Ailəli idi. Üç övladı var.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Malik Əsədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Havarlı kəndində dəfn edilib.

Təhsil aldığı Havarlı kənd tam orta məktəbi onun adını daşıyır. Həmin məktəbdə və Mingəçevir şəhərində - işlədiyi idarənin önündə Milli Qəhrəmanın büstü qoyulub.



**Əsgərova Gültəkin Məlik qızı**

20 noyabr 1960-cı ildə Bakıda anadan olub. 1978-ci ildə 200 nömrəli orta məktəbi əla qiymətlərlə bitirib. 1983-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub və təhsilini 1989-cu ildə başa vurub. Ali məktəbi bitirdikdən sonra 8-ci Təcili Yardım Stansiyasında çalışıb. Daha sonra Uroloji Xəstəxanada anestezioloq-reanimatoloq vəzifəsində işləyib. 4 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. Əvvəlcə Turşsuda, sonra isə Şuşada neçə-neçə yaralı əsgərə tibbi yardım göstərib. Şuşanın işğalından sonra Laçının, Qubadlının müdafiəsində yaxından iştirak edib. Gültəkin Əsgərova 20 iyun 1992-ci ildə Aranzəmin-Naxçıvanik istiqamətində gedən ağır döyüşdə öz xidməti borcunu yerinə yetirərkən həlak olub.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı fərmanı ilə Gültəkin Əsgərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu 200 nömrəli tam orta məktəbə onun adı verilib. Bakının Nərimanov rayonunda büstü qoyulub. Xəzərdə üzən gəmilərdən biri Milli Qəhrəmanın adını daşıyır. Bakının Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulub.



**Əsgərova Salatın Əziz qızı**

1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində anadan olub. 1979-cu ildə M.Müşfiq adına 18 nömrəli orta məktəbi əla qiymətlərlə bitirib, Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub, mühəndis diplomu alsa da, ədəbiyyata olan həvəsi onu jurnalistika aləminə yönəldib. "Baku" və "Molodyoj Azerbaydjana" qəzetlərində müxtəlif mövzularda çıxışlar etməyə başlayıb. Qarabağ dərdi, torpaqlarımızın bütövlüyü onun yazılarının başlıca mövzularına çevrilib. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı.

1991-ci il yanvarın 9-da Laçından Şuşaya gedərkən Qaladərəsi kəndi yaxınlığında yaxın məsafədən onları atəşə tuturlar. Tanınmış jurnalist, "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı Salatın Əsgərova vəhşicəsinə qətlə yetirilir.

Ailəli idi. Bir oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Salatın Əsgərovaya ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Paytaxtımızda adına küçə var. Bakı buxtasındakı gəzinti kateri onun adını daşıyır. "Təfəkkür" Universitetində büstü qoyulub. Yaşadığı binaya barelyefi vurulub. Yaxınlığında həlak olduğu kənd "Salatınkənd" adlanır.



**Əsədov Rəfael Əvəz oğlu**

27 oktyabr 1952-ci ildə Gəncə şəhərində anadan olub. 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Tbilisi Ali Artilleriya Məktəbinə daxil olub. 1973-cü ildə hərbi məktəbi bitirərək, təhsilini Sankt-Peterburq Hərbi Artilleriya Akademiyasında davam etdirib. R.Əsədov ali təhsilini başa çatdırdıqdan sonra SSRİ Silahlı Qüvvələrinin məhdud kontingenti tərkibində Macarıstan, Vyetnam və Əfqanıstanda qulluq edib. Leytenant rütbəsindən polkovnik rütbəsinədək yüksəlib.

1991-ci ildə qəlbinin hökmü ilə Vətənə qayıdaraq öz taleyini təzəcə yaranmaqda olan Milli ordu ilə bağlayıb. Artilleriyanın təkmilləşdirilməsində, müasir zenit batareyalarının yaradılmasında bilik və bacarığını əsirgəməyib. Polkovnik Rəfael Əsədov artilleriya korpusunun komandiri təyin edilib. O, Ağdam, Goranboy, Tovuz, Gədəbəy döyüş bölgələrində aparılan hərbi əməliyyatların təşkilatçısı və fəal iştirakçısı olub. 12 noyabr 1992-ci ildə Ağstafa bölgəsində növbəti əməliyyata hazırlıq zamanı yaxınlığda partlayan mərmi qəlpələrindən həlak olub.

Evli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə polkovnik Rəfael Əsədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Fərzəliyev Pəhlivan Əhliman oğlu**

27 sentyabr 1958-ci ildə Füzuli rayonunun Qobu Dilağarda kəndində anadan olub. Doğma kənddə səkkizinci sinfi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olub. 1978-ci ildə zootexnik kimi Füzuli rayonunda əmək fəaliyyətinə başlayıb. 1979-cu ildə ordu sıralarına çağırılıb. Ordudan tərxis olunduqdan sonra isə Qazaxıstanın Aktübinsk şəhərində daxili işlər orqanlarında işə başlayıb. 1986-cı ildə Orenburq Politexnik Universitetinin avtomobil nəqliyyatı fakültəsini bitirib. 1990-cı ildə baş leytenant rütbəsində Vətənə dönüb və Füzuli rayon DİŞ-də növbətçi inspektor vəzifəsinə təyin edilib. DİŞ-də post-patrul rotası 3-cü tağımına komandir təyin olunub. Ona ikinci bir vəzifə - BTR-in ekipaj komandiri vəzifəsi etibar edilib. Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında tağımı ilə birgə mərdliklə döyüşüb.

1992-ci il aprelin 11-də Qacar kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına həlak olub.

Evli idi. İki oğlu, bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Pəhlivan Fərzəliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilib.

Bakı şəhərindəki qəsəbələrdən biri Milli Qəhrəmanın adını daşıyır.



**Fərəcov Ənvər Səyyad oğlu**

28 iyun 1952-ci ildə Goranboy rayonunun Sarov kəndində anadan olub. 1968-ci ildə kənd orta məktəbini bitirib və Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olub. 1974-cü ildə mexanizasiya fakültəsinin məzunu kimi Goranboy rayonunun "Azərbaycan" kolxozunda baş mühəndis vəzifəsində əmək fəaliyyətinə başlayıb.

1981-ci ildən isə həyatını daxili işlər orqanlarına bağlayıb.

1990-cı ildə Özbəkistan Milis Akademiyasını bitirərək Azərbaycan DİN-nin sərəncamına göndərilib. Gəncə şəhər DİŞ-də rəis köməkçisi işləyib. 1991-ci ildə doğma rayonuna qayıdıb və Todan polis bölməsində pasport-masa rəisi vəzifəsində çalışıb. Az keçməmiş onu bölmənin rəisi təyin edirlər.

18 avqust 1991-ci ildə Ə.Fərəcov yoldaşlarını mühasirədən çıxartmaq üçün qeyri-bərabər döyüşə girib.

11 sentyabr 1991-ci ildə yağı düşmən böyük qüvvə ilə Erkəc, Mənəşli, Buzluq kəndlərinə hücuma keçir. Qeyri-bərabər döyüşdə Ə.Fərəcov qəhrəmancasına həlak olur.

Ailəli idi. Bir oğlu, bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 214 saylı fərmanı ilə Ənvər Fərəcova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Goranboy rayonunda dəfn edilib.

Goranboy rayonunda büstü qoyulub.



**Güləliyev Oqtay Güləli oğlu**

10 noyabr 1962-ci ildə Laçın rayonunun Xaçınyalı kəndində anadan olub. 1982-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılıb. 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına daxil olub, 1989-cu ildə iqtisadiyyat fakültəsini bitirib. Laçın rayon DİŞ-də pasport bölməsinə baş inspektor, sonra isə polis rotasının komandiri təyin olunub. Erməni quldurlarının torpaqlarımıza silahlı basqınları zamanı əhalinin təhlükəsizliyinin təmin edilməsində Oqtay böyük fədakarlıq göstərib. Uğursuz "Daşaltı əməliyyatı" zamanı onun rotası mühasirəyə düşən 80 nəfər əsgərimizi təhlükəsiz zonaya çıxarıb.

1992-ci il sentyabrın 19-da Oqtay Güləliyevin rotası Laçın dəhlizini tutmaq üçün Hocaz kəndi, Nərgiz yüksəkliyi uğrunda döyüşə atılır. Ermənilərin xeyli canlı qüvvəsi və texnikası məhv edilir.

Oqtayın rotası düşməni çaşbaş salaraq Sus, oradan Qızılca kəndlərinə qalxır. Bu zaman onlar arxadan atəşə tutulurlar. Oqtay mühasirəyə düşdüklərini anlayır. Rota mühasirəni yararaq Avazdar yüksəkliyinə qalxır, ordan da Hocaz kəndinə dönür. Elə bu vaxt yenidən mühasirəyə düşürlər. Yoldaşlarının bir hissəsini təhlükəsiz yerə keçirsə də özü qəhrəmancasına həlak olur.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı fərmanı ilə Oqtay Güləliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Laçın şəhərində və Piçənis kəndində adına məktəb var.



**Hacıyev Əlif Lətif oğlu**

24 iyun 1953-cü ildə Xocalı şəhərində anadan olub. 1970-ci ildə orta məktəbi bitirərək Xankəndi şəhərində sürücülük peşəsinə yiyələnib. Hərbi xidmətini Minsk şəhərində keçib. 1973-cü ildə ordudan tərxis olunaraq Xankəndi Avtonəqliyyat Müəssisəsində sürücü işləyib. 1974-1984-cü illərdə Belorusda daxili işlər orqanlarında müxtəlif vəzifələrdə çalışıb. 1979-cu ildə Frunze adına Xüsusi Orta Milis Məktəbini bitirib, 1981-ci ildən təhsilini SSRİ DİN-nin Akademiyasında davam etdirib.

Ə.Hacıyev 1990-cı ilin dekabr ayında Xocalı təyyarə limanı xətt daxili işlər bölməsinə rəis təyin edilir.

Əlif Hacıyevin əzmkarlığı nəticəsində aeroport erməni millətçilərinin nəzarətindən tamamilə çıxır. Bunun əvəzini çıxmaq üçün düşmən "Xocalının alınması əməliyyatı"na başlayır. 1992-ci il fevralın 25-də ermənilər Xocalı camaatına kəndi tərk etmək haqda son xəbərdarlıq etsə də əhali şəhəri tərk etmir.

Əlif və onun dəstəsi səhər saat beşə qədər azğınlaşmış rus hərbçiləri və erməni yaraqlıları ilə vuruşur. Bu qanlı döyüşdə misilsiz qəhrəmanlıqlar göstərən Əlif xeyli dinc sakini Ağdamın Şelli kəndinə tərəf təhlükəsiz yerə çıxarır, yenidən döyüşə atılır. Vətənini, torpağını canından əziz bilən Əlif, Qarabağ torpağında - Xocalı faciəsi zamanı şəhid olub.

Ailəli idi. İki qızı var.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə mayor Əlif Hacıyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Bakının Nizami rayonundakı küçələrdən biri adını daşıyır.



**Hacıyev Fikrət Əli oğlu**

19 may 1964-cü ildə Goranboy rayonunun Qızılhacılı kəndində anadan olub. 1978-ci ildə doğma kəndlərində səkkizinci sinfi bitirdikdən sonra Gəncə texniki peşə məktəbində elektrik ixtisasına yiyələnib. Hərbi xidmətini Ufa şəhərində keçirib. Bakı Kooperativ Texnikumunda təhsilini başa vuraraq doğma kəndə qayıdıb və öz ixtisası üzrə əmək fəaliyyətinə başlayıb.

1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə gedib. Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər məntəqələrin erməni quldurlarından müdafiəsində fəal iştirak edib.

4 may 1992-ci ildə Talış kəndində yerləşən erməni mövqelərini susdurmaq üçün "Yaltaxıl" adlanan ərazi üzrə əməliyyat planı hazırlanır. Bu, erməni silahlı birləşmələri üçün gözlənilməz olur. Düşmən Goranboy döyüşçüləri qarşısında duruş gətirə bilməyərək öz mövqelərini tərk edir. Mayın 5-də ermənilər qəfil hücuma keçərək ərazini güclü atəşə tuturlar. Fikrət Hacıyev bu döyüşdə qəhrəmancasına həlak olur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Fikrət Hacıyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qızılhacılı kənd qəbiristanlığında dəfn edilib. Ballıqaya kənd tam orta məktəbi onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulub.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*